TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakologiya və Farmakopeya
Ekspert Şurasının sədri
E.M.Ağayev
"___"__________ 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**Bu dərman vasitəsini qəbul etməzdən əvvəl bu içlik vərəqəsini diqqətlə oxuyun!**
İçlik vərəqəsini saxlayın. Onu bir daha oxumağa ehtiyac yarana bilər. Daha ətraflı məlumatı həkiminiz və ya əczaçıdan alın. Zəruri hesab etsəniz məsləhət üçün onlara müraciət edin.

**QASTRİTOL** daxilə qəbul üçün damcı
GASTRITOL

**Tərkib:**
*Təsiredici maddələr:* 100 ml dərman vasitəsinin təkibində qaz qaytarması (Anserinae herba) otunun maye ekstraktı (1:1,7-2,2) (ekstragent: etanol 40% (həcm faizi/həcm faizi) 35 ml, aptek çobanyastığı çiçəklərinin duru ekstraktı (Matricariae flos) (1:1,7-2,2) (ekstragent: etanol 45% (həcm faizi/həcm faizi)) 20 ml, biyan kökünün duru ekstraktı (Liquiritiae radix) (1:1,7 – 2,2) (ekstragent: etanol 40% (həcm faizi/həcm faizi) 15 ml, mələkotu kökünün duru ekstraktı (Angelicae radix) (1:1,7 – 2,2) (ekstragent: etanol 40% (həcm faizi/həcm faizi) 5 ml, kardobenedikt otunun duru ekstraktı (cnici ben. herba) (1:1,7 – 2,2) (ekstragent: etanol 40% (həcm faizi/həcm faizi) 5 ml, yovşan otunun duru ekstraktı (Absinthii herba) (1:1,7 – 2,2) (ekstragent etanol 40% (həcm faizi/həcm faizi) 5 ml.
*Köməkçi maddələr*: etanol 40% (həcm faizi/həcm faizi), təmizlənmiş su

**Təsviri**
Şəffaf qəhvəyi maye.

**Farmakoterapevtik qrupu**
Həzm traktının funksional pozulmaları zamanı istifadə edilən vasitələr.
**ATC kodu:** A03A X.

**İstifadəsinə göstərişlər**
Funksional dispepsiya, meteorizm, qastrit, həmçinin xroniki hiperasid qastrit, eyni zamanda mədə və onikibarmaq bağırsaq xorasının kompleks müalicəsinin tərkibində.

**Əks göstərişlər**
Preparatın hər hansı inqrediyentinə qarşı hiperhəssaslıq, preparatın komponentlərinə qarşı allergik reaksiyalar.

**Digər dərman vasitələri ilə qarşılıq təsiri**
Bu vaxta qədər müəyyən edilməyib.

**Ehtiyat tədbirləri**
Qastitol preparatının tərkibində 40 həcm%-i etanol vardır.
Preparatın 1 damcısının tərkibində 0,016 q etanol vardır.
Təlimata əsasən preparatın qəbulu zamanı hər doza ilə (25 damcı) 0,4 q spirt qəbul edilir. Bu isə qaraciyər xəstəliyi, mərkəzi sinir sistemi zədələnmələri olan xəstələr, alkoqolizm, epilepsiya xəstələri, hamilə qadınlar və uşaqlar üçün təhlükə yarada bilər. Digər dərman vasitələrinin təsiri azala və ya çoxala bilər.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Belə hallarda preparatın qəbuluna dair kifayət qədər təcrübə olmadığına görə hamiləlik və laktasiya dövründə qəbul edilməsi məsləhət görülmür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparatın terapevtik doza çərçivəsində qəbul olunması nəqliyyat vasitəsinin idarə olunmasına və ya digər mexanizmlərlə işləməyə təsir göstərmir.

**Uşaqlarda istifadəsi**
Uşaqlara tətbiq olunmasına dair kifayət qədər təcrübə olmadığına görə 12 yaşdan aşağı uşaqlarda istifadə olunması məsləhət görülmür.

**İstifadə qaydası və dozası**
Digər göstərişlər olmadığı halda gündə 3 dəfə yemək zamanı az miqdarda maye ilə qarışdırılmış halda 20-30 damcı qəbul etmək lazımdır. Ağır və kəskin vəziyyətdə hər 30 dəqiqədən - 1 saatdan bir 15-25 damcı qəbul etmək lazımdır. Belə müalicə sxemi təkrar müalicə zamanı da istifadə olunur.
Müalicə müddəti – 3- 4 həftə. Zərurət olarsa, müalicə kursunu 2 aydan sonra təkrar etmək olar.

**Əlavə təsirləri**
Çox nadir hallarda işığa qarşı dərinin çox yüksək həssaslığı olan xəstələrdə, intensiv günəş şüalarının təsiri altında inkişaf edən günəş yanıqları formasında dəri reaksiyaları yarana bilər.
Preparatın ayrı-ayrı komponentlərinə qarşı fərdi dözümsüzlüyün olması üzrə ədəbiyyat mənbələrində allergik reaksiyalar (dərinin qızarması, səpgi, qaşınma), mədə-bağırsaq traktı tərəfindən yaranan reaksiya (ürəkbulanma, qusma), su-elektrolit balansının pozulması kimi hallar qeyd edilmişdir.
Lakin, Qastitol preparatının qəbulu zamanı belə əlavə təsirlərin baş verməsi haqqında məlumatlar daxil olmamışdır.

**Buraxılış forması**
Damcısalan ilə 20ml, 50 ml, 100 ml məhlul, flakonlarda. 1 flakon damcıladıcı və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən yuxarı olmayan temperaturda, orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.
Flakon açıldıqdan sonra istifadə müddəti – 3 aydır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Dr. Qustav Klayn GmbH & Ko.KQ
Ştaynenfeld 3, 77736 Sell am Xarmersbax, Almaniya
Dr. Gustav Klein GmbH & Co.KG
Steinfeld 3, 77736 Zell am Harmersbach, Germany